

# Parabüzən

## (Hekayə)

Deyirlər insan yaşlandıqca uşaqlaşır. O, məhz bu gün bunu hiss etmişdi. Əslində Şahin yaşlanmamışdı. Lakin bu gün nəsə yaşının iki mislini hiss edirdi. Bu gün o, yaxınlarda canını alacaq ölüm mələyinin gələcəyini qeyri-ixtiyari olaraq duymuşdu.

**Hələlik isə 41yaşlı pəhləvan cüssəli bu kişinin kol üstündə gördüyü parabüzənə baxaraq, uşaqlıq illərini xatırlaması və özündən asılı olmayaraq, elə o illərdəki məsim uşaq kimi parabüzəndən dilək diləməsi özünə də qəribə gəlirdi. Daxilində anlaşılmaz hisslər baş qaldırmışdı. Elə hey balaca parabüzənə baxaraq - "məni Vətənimə apar!" - deyirdi. Uşaqlıq illərində parabüzən görən kimi (kənddə yaşadıqları üçün tez-tez parabüzən görərdilər) qürbətdə yaşayan dayısı yadına düşərdi və o, uşaq təfəkkürü ilə parabüzəndən dayısını gətirməsini istəyərdi.**

*(Əvvəli ötən sayımızda)*

Qəfil gələn zəng hamını bir anlıq durdurdu. Dərindən nəfəs alıb, cavab düyməsini basdı. O, danışığını bitirənə qədər kimsə bir kəlmə kəsmədi. Bayaqdan divarlarını səs-küy bürümüş evi indi sükunət bürümüşdü. Nərgiz sual dolu baxışlarla Şahini süzürdü. Şahin onun baxışlarından hər şeyi anladı.

-Hə, narahat olma. Sabahdan ehtiyatda olan zabit kimi təlimlərə qatılmalıyam. İndi Hərbi Komissarlıqdan zəng etmişdilər. Sabah saat 10:00 -da orda olmalıyam.

Nərgizin içindən bir üşütmə keçdi. Qadın intuisiyası ilə bu təlimlərin arxasında nəsə olduğunu hiss edirdi. Özündən asılı olmayaraq dilləndi, -ay Şahin, sənin indi təlimlərə qoşulan vaxtındır?! Bu nə təlimdir belə?

Şahin onu sakitləşdirməyə çalışırdı.

-Əzizim, narahat olmağa dəyməz. Hər il təlimlər olur. Görünür mənim növbəm indi çatıb. Qonşuluqda yaşayan böyük qardaşına zəng edib sabahdan hərbi təlimlərə qatılacağını bildirdi. Adəti üzrə səhər erkəndən oyanmışdı. Qalxıb hazırlanmağa başladı. Nərgizin xətrinə dəyməmək üçün yüngülvari səhər yeməyi də yedi. Üzünü təraş edib son dəfə hər şeyi yoxladıqdan sonra hamı ilə sağollaşıb evdən çıxdı. Qardaşı Rəhman həyətdə onu gözləyirdi.

-Axı sən niyə gəldin? Daha əsgər gedən o cavan deyiləm ki. Özün narahat adamsan. Niyə əziyyət çəkmisən?

Rəhman heç nə olmamış kimi sakitcə onu dinləsə də narahat olduğu üzündən hiss olunurdu.

Avtobusa minən Şahin güləgülə qardaşına əl edirdi. Rəhman da əlini qaldırdı, amma o bu vidanın nəsə fərqli bir vida olduğunu keçmiş döyüşçü ruhu ilə hiss edirdi. Sanki Şahini təlimə deyil, döyüşə yola salırdı.

Təlimlər keçirilən ərazilər düşmənlə təmas xəttində idi. Qara zolaq kimi araya düşünən bu təmas xətti onda nifrət hissini daha da gücləndirirdi. Dağın o tərəfi onların düşmən işğalına məruz qalan ata yurdları idi. Bircə döyüş əmri verilə! Bu alçaqları həşərat kimi əzərəm!

Güllü-çiçəkli bir çəmənlikdə idi. Yağış yağırdı. Yamyaşıl otların arasından baş qaldıran qıpqırmızı lalələr bu çəmənliyə özgə bir gözəllik qatmışdı. Otların, çiçəklərin ətri bir-birinə qarışmışdı. Al-əlvan kəpənəklər çiçəkdən- çiçəyə qonurdular. Olduqca gözəl bir mənzərəni seyr edirdi. Birdən çobanyastığının ləçəyinə qonmuş qırmızı üstü xallı balaca dostunu-parqbüzəni gördü. Elə bil evə aldığı şəkildəki parabüzən idi. Parabüzən gülürdü. İnanmayacaqsınız o hətta danışırdı.

-Gəl! Səni vətəninə aparacağam. Tez ol!

Şahinin dili-ağzı qurumuşdu. Balaca parabüzən get-gedə böyüməyə başladı. Necə baş verdiyini bilmədi, bircə onu gördü ki, nəhəng bir parabüzənin qanadları arasında ağ buludların üstü ilə mavi səmada uçur.

- Bax, aşağıdakı kənd sizinkidir. Çox arzulayırdın vətənə gelməyi . Səni həmişəlik bura gətirdim. Geri qaytarmayacağam. Hazırlaş, enirik.

Nərilti, gurultu ətrafı bürümüşdü. Sürətlə aşağı enirdilər. Səs getdikcə artırdı. Sanki yer-göy titrəyirdi. İnsan səsləri və gurultu birbirinə qarışmışdı. Daha möhkəm bir gurultu və gözlərini açdı. Gördükləri yuxu idi. Səslər isə həqiqət.

Düşmən hücuma keçmişdi. Qısa müddət ərzində düşmənin ateş nöqtələri susduruldu və illərlə hamının gözlədiyi məqamı yetişmiş hücum əmri verildi. Şanlı Azərbaycan Ordusu əks-həmlə əməliyyatlarına başlamışdı. 27.09.2020-cil il 27 illik acıların dönüş nöqtəsi, intiqamın, qisasın bə qələbənin başlanğıc tarixi oldu. Sıravi əsgərdən tutmuş yüksək rütbəli zabitlərə qədər hamı ürəklə, həvəslə döyüşürdü. Hər kəs ölümün üstünə gülərək gedirdi. İnam zəfərə atılan ilk addımdır. Taqım komandiri Şahin Fərzəliyev ən öndə gedənlərdən birisi idi. Bürda hamını birləşdirən bir amal vardı-Vətən!

Ölüm qoxusu verən silahlardan, Vətən eşqi ilə döyünən könüllərdən, mərmilərdən parampurça olmuş torpaqdan, parçalanmış bədənlərdən, göyə qalxan ruhlardan, yağışı əsirgəyğn buludlardan, soyuğu, küləyi, özündə saxlayan dağlardan, kəlmeyişəhadət deyən dillərdən zəfər nidası yağırdı.

Mərmilər dolu kimi töülürdü. Iyirmi yeddi il ərzində torpaqlarımızda möhkəmlənmiş düşmən ordusu böyük hamisindən demək olar ki, müftə olaraq əldə etdiyi silah-sursata, qurduqları mühəndis-istehkam sədlərinə çox güvənirdi. Lakin düşmən unudurdu ki, onların mifoloji ordusu və pul müqabilində gətirdikləri muzdlular özgə torpağında bizim ordumuz isə öz torpağımızda öz vətənimiz üçün döyüşür. Olduqca əlverişli mövqedə yerləşən və çox yaxşı müdafiə olunan düşmən səngərlərini keçmək onlarla şəhidin, yaralının qanı bahasına başa gəlirdi. Şəhidlər gələcəkdə gülüstana çevriləcək vətən torpaqlarını qanları ilə suvarırdılar. Şəhid qanlarından qələbəyə inam tumları cücərirdi. Doğma kəndi uğrunda döyüşürdü. Olduqca mükəmməl döyüş planı hazırlanmışdı. Azərbaycan Ordusu hər gün uğura imza atırdı. Bütün şəxsi heyət çox yorğun olmalarına baxmayaraq yüksək əzmkarlıq nümayiş etdirirdilər. Neçə gün idi ki, yuxusunda parabüzəni görmürdü. Dünən azacıq gözünün acısını alanda sadiq dostunu görmüşdü. Bu dəfə o qədər də heybətli deyildi. Qara xallı, qıpqırmızı gözəl parabüzən yenə danışırdı.

-Səni birdəfəlik bura gətirdim. Bundan sonra çox rahat uyuyacaqsan. Kabus yuxuların sonu yetdi. Sabah həyatında heç zaman almadığın ən rahat yuxunu alacaqsan.

Ürəyinin üstündə gəzdirdiyi bayrağı kəndinə sancmağa lap az qalmışdı. Şahingilin kəndi düşmənlə təxminən üç kilometrlik bir məsafədə yerləşirdi. Bura düşmənin iyirmi yeddi il əvvəl işğal etdiyi strateji əhəmiyyətli ən son dayaq məntəqələrindən idi. Məğlubiyyətindən qudüzlaşmış düşmən tərəfi Azərbaycan Ordusunnda insan təlefatını artırmaq üçün hər vasitədən istifadə etməyə çalışırdı.

Şahin sevinc içində döyüşədöyüşə addım-addım irəli gedirdi. Onun bu sevincini bəlkə də hər hansısa sözlə ifadə etmək mümkün deyildi. Vurulmuş, darmadağın olunmuş, tərk edilmiş düşmən texnikalarına, silah-sursata, yerdə yan-yana düzülmüş düşmən leşlərinə baxdıqca ürəyi dağa dönürdü. Bütün dünya Azərbaycan xalqından, Azərbaycan Ordusundan, Azərbaycan əsgərindən danışırdı.

Köhnə tütün yerinin yanındakı təpənin arxasındakı tank piyadaların sürətlə və sərbəst irəliləməsinə ciddi maneə yaradırdı. Bu yerlərin hər daşına, cığırına, sel yataqlarına yaxşı bələd olan Şahin sezdirmədən ehmalca yerini dəyişməyə başladı. O nəinki qəbir daşları, hətta məzarları belə dağıdılmış qəbristanlığın altı ilə keçən dərə boyu sürünə-sürünə olduqca sərt, tikanlı, çınqıllı yüksəkliyə dırmaşaraq düşmən tankının gizləndiyi təpənin arxa tərəfinə çıxdı. Tank bura ən yaxın məsafədə gizlədilmişdi. Ehtiyatla bir az da aradakı məsafəni qısaldan Fərzəliyev qranatatanı çiyninə atıb tankı nişan aldı. Yanan tankdan çıxmağa çalışan düşmən əsgərlərini də cəhənnəmə vasil etdi. Əsgərlərindən xeyli uzaq düşmüş baş leytenant Şahin Fərzəliyev inamla irəli gedirdi . Tək olmasına baxmayaraq heç nədən qorxmurdu. Onlar bura qorxunu dəfn edib gəlmişdilər.

Texnika səsi gəlirdi. Bu dəqiq tank səsi idi. Deməк ki, burda ikisi varmış. Nəfəsini içinə çəkib ətrafı diqqətlə dinləməyə başladı. Tankın hansı istiqamətdə olduğunu müəyyənləşdirmək istəyirdi. Ard-arda iki mərmi atıldı. Tütün sahəsinin o biri başı iri böyürtkən kolları ilə dolu idi. Atılan mərmilərdən sonra tankın məhz bu kolluqların arasında mövqe tutduğuna əmin oldu. Ətrafı dinləyərək və müşahidə edərək talaya doğru gedirdi. Artıq tankı aşkarlamışdı. Ancaq qranatatanı yox idi. Tankı partlatmaq üçün düşünürdü. Elə bu an mistik bir qüvvə ona yardım etmiş oldu. Yayxana-yayxana tankın qapağını açan erməni əsgəri özü də bilmədən Şahinə kömək etmişdi. Siqaretini yandırıb dərin bir tüstü alan düşmən əsgəri saymazyana şəkildə yerə atılıb özünü tankın arxasına verdi. Şahin nifrətlə yerdə çabalayan düşmən əsgərinə baxırdı. Üst-başı qızılı qan içində idi. Qollarına qüvvət gəlmişdi. Tankın üstünə çıxıb əlindəki qumbaranı içəri atdı. Sevincli idi. Azərbaycan əsgərləri üçün güclü maneə yaradan düşmən tanklarını ekipaj üzvləri ilə birlikdə məhv etmişdi. İndi geriyə qayıtmalı və bayrağı hündür bir yerə sancmalı idi. Hər yan xarabazara çevrilmişdi. Yalnız köhnə idarə binası salamat qalmışdı. Görünür düşmən burdan qərargah kimi istifadə edirmiş. Tez-tez mərmi səsləri eşidilirdi. Düşmən olduqca strateji əhəmiyyətli bu yerləri əldən vermək istəmirdi. Lakin Azərbaycan Ordusunun qarşısında da tab gətirə bilmirdi. Tütün sahəsini keçib idarə binasının qarşısına gələndə artıq hər yerdən "allahüəkbər" "Qarabağ Azərbaycandır!" kimi nidalar eşidilirdi.

-Sənə şükürlər olsun, ilahi! - deyib bayrağı qoynundan çıxardı. Düşmən bayrağını endirib şanlı Azərbaycan bayrağını binadan asdı. Qürurla dalğalanan üçrəngli bayrağı süzürdü. Güllə səsig bu nədir niyə yıxıldım? Gözlərim niyə qaralır axı? Heysizləşirəm? Olmayag olmaya məni vurdular? Son dəfə günəşə baxırdı. Tədricən hər yer qaranlıq oldu. Gözgözü görmürdü. Birdən qaranlıqda balaca parabüzəni gördü. Sevindi.

-Sağ ol, parabüzən. Məni vətənimə qovuşdurdun. Yuxusu gəlirdi. Bu qara torpağın üstü elə rahat idi. Ömründə bu qədər rahat yatmamışdı.



**Fərid MURADZADƏ**

**29.01.2020**